# Qəribə adlar

## ESSE

Mənim Biləsuvarım - Bu sözü qürurla, iftixarla deməkdən usanmıram, yorulmuram - Müstəqil Azərbaycanımızın cənub darvazasıdır.Ölkə rəhbərliyinin daim qayğısı,maddi dəstəyi sayəsində rayonumuz gündən-günə, aydan-aya inkişaf edir.Muğanın bir parçası kimi göz oxşayır,gəlib-gedənlərdə xoş ovqat yaradır.Son illərdə ölkə prezidenti,Cənab İlham Əliyev təkcə yolların asfaltlaşdırılmasına dörd dəfə vəsait ayırmışdır.Bütün kəndlərə gediş-gəliş çox asandır. Hər gün Bakıdan, qərb zonasından, İrandan, Naxçıvandan müxtəlif istiqamətlərə minlərcə ağır tonajlı avtomaşın baş alıb gedir.Şəhəin küçələrində tıxaclar yaranır, piyada yolunu keçmək istəyirsənsə, gərək gözlərin dörd ola.

Bir topa qara buludun qorxusundan otaqların arxasında gizlənən Günəş o gün al şəfəqlarini hər yana yaydı, mənə salam verdi-.Onun salamını aldım və hiss etdim ki, gözəl ovqatım var.Bəy balası kimi geyindim : təzə,-dəbdə olan kostyum,ağ köynək,çəhrayı rəngli qalustuk.Evin anası (bu ifadə Ə.Mədətoğlunundur) biləndəki, mən şəhərin mərkəzinə gedirəm, astaca eşitdirdi ki, könlümə balıq düşüb.Aydındır, kepkanı basdım gözümün üzstünə, iri addımlarla gəldim.H.Əliyev adına prospektə.Ya da salımki, şəhərin əksər küçələri prospektə qoşulur... Ürəyimdən qəribə istək keçdi, öz-özümə dedim: uzunluğu çox yox, üç km olan prospektə bütün dükanlara baş çəkəcəm, baxım, görüm bizim sahibkarlar, daha doğrusu,tacirlər nə alır, nə satırlar...

İki mərtəbəli, gözəl, yaraşıqlı, müştərilərə əl edən binaya girirəm.Adı belədir: "Ldyu city".Nə var burda.Orta yaşlı qadınla qarşılaşıram.

- Bu, nə addı bacı - deyə soruşuram.

- Mən bilmərəm,Həsən bakıdadır: onun dükanıdır bura

- Bəs nə satırlar?

- Qadın paltarları.Heç alan varki...

"Pozis Atlava" adlı binada bığı burma, hündür boylu cavan oğlan, diyəsən məni tanıyır.

- Buyur, buyur müəllim, xətrin nə istiyir? Qulluğunda hazıram.

- Bilmək maraqlıdır : Nə üçün sənin dükanın belə adlanır ?

Başını yelləyir,bığını sığallayır:

- Hə, bu xarici sözdür.Fransızcadı.Mən bilən, mənası "salam, xoş gəlibsən" deməkdir.Mebellərimiz Türkiyənindir.Şifoner, bufet, müasir növlü məişət əşyaları satırıq.

"Diana. Qarışıq mallar" möcüzəli təsir bağışlayır.Elə qapı ağzında onun sahibi Əlizadə ilə söhbətləşirik.Savadlı, siyasətdən xəbərdar kimi ağıl dərsi verir mənə:

- Yadımdadır bir zamanlar Britaniya Kraliçası Diana hansısa Ərəb ölkəsi şeyxinin oğluna aşiq olmuşdu.Kef çəkirlər.Parisdə qəsdən onları maşında gedərkən avariyaya salıb öldürdülər.

- Sənin dükanına nə dəxli var o hadisənin?

- Reklamdı də...

"Pomerfil İndesit".Görəsən burda nə satılır ?İçəri girən kimi Zərifə müəllimə ilə qarşılaşıram.Görüşürük.Çox bilikli, qabiliyyətli, uşaqların sevimlisi olan müəllimədir.Biologiyanı tədris edir...Özü izzahat verir:

- Əmioğlum nahara gedib.Onu əvəzləyirəm.(Bizim rayonda ərlə arvad bir-birinə "əmioğlu, əmiqızı" deyə müraciət edirlər)

- Nə satırsan ?

- Vallah deməyə utanıram.Spirtli içkilər: Araq, konyak, Ağdam çaxırı...Neyləyim, zəmanənin üzü dönsün.Mən hara, satıcılıq hara...Keçmişdə müəllim satıcı işləyirdi? Özüdə hansı dükanda ?

- Daha çox nə satılır ?

- İrandan qaçaqmalçılıqla gətirilən araq:

- Cavanlar, toy eliyənlər iran arağına meyillidirlər.Belə söyliyərlər ki, o ölkənin arağı həm ucuzdur, həmdə keyfiyyətli.

"Antalya" mağazasında qızğın alver gedir.Türkiyənin mallarıdı.Qadın və uşaq geyimləri.

Gəlirəm " Gülüstan"a. Yaşlı qadın gəzişir ortalıqda, müştərilərinə maaşını təriflәyir.Əlində milçi var, corab toxuyur.

- Nə satırsan bacı ?

- Heç nə olmasada kəntdən göyərti,yumurta gətirirlər 5-10 qəpik ucuz alıb, baha satıram.

- Bəs niyə bura "Gülüstan"dır.

- Rəhmətə gedən cavan qızımın adınadır-.Ərdəydi iki uşağı var.O pis xəstəlikdən tutdu.Türkiyəyə də apardıq, əlac olmadı...Gözləri dolur.İndi burda çak-çuk edirəm ki, o iki nəvəmi böyüdüm, oxudum.Əri təzəxan evlənib .Nəvələr mənim yanımda qalır.

"Karvan"a gəlirəm.Yadıma Soltan Hacıbəyovun "Karvan" suitası düşür.Ərəbistan

səhrasında dəvələr gedir, bozduyur və zınqrovlar eyni vaxta səslənir...Bir zamanlar böyük bəstəkar, Azərbaycanı dünyaya tanıdan Qara Qarayev demişdir: "Mən "Karvan"ı hər gün dinləməyə hazıram".Onun sahibi incəsənət müəllimi Raufdur, toylarda sintizator çalır.Söylədi ki, klassik musiqini çox sevir, müştəriləri də çalıb-oxuyanlardır... Bakıdan musiqi alətləri alıb gətirir və satır.Dolanşığı, qazancı pis deyil.

"Çelisse" dükanı.Burda suptropik meyvələr: limon, mandarin, feyxoa... satılır.Əynində yaşıl əba,başında araxçın olan, uzun saqqalı kişi oturub kresloda, əlində də təsbeh, özözünə danışır.Tanıyıram onu.Molla Hacı Mir Alimin yançılarındandır.Şirin,məlahətli səsi var...Əlinə mikrafon keçəndə mərsiyyə deyib, yas təziyyəsinə gələnləri ağladır.

İki mərtəbəli binanın lap yuxarısında böyük hərflərlə yazılıb: "Enbaşod Mebel Salonu".İçəri doludur mebellə-divan, şifoner,kreslo... Bir qızla görüşürəm.Növbətçidir.

- Alver getmir.Ayda 2-3 müştərimiz ola-olmaya.Camaatda pul yoxdu - deyə gileylənir.

- Bəs o "Enbaşod" nə sözdü?

- Mən bilmirəm, müdirimiz Həsən müəllim(indi dəbdi hər kəs öz rəisinə,müdirinə, "müəəlim" deyir)Bakıdadır,gələr, o sözün mənasını ondan soruşarsınız.

Şəhərimizin "50 ev" məhəlləsi.Burda biz zasnanlar firəvan həyat üçün tərki vətən olan dağ rayonlarının əhalisi məskunlaşıb.Qocalar indi də talışca danışırlar.Yol qrağında dükanları var. Adı belədir: "Lyəboy". Öyrənirəm: bu söz "bura gəl" deməkdir.Yəni ay bizimkilər başqa yerə getməyin,bizimlə alver edin.Dükanın qabağına düzüblər mallarını-nehrə,təndir,piti bardağı,kartof,soğan,sarımsaq və.s.

"Play stadion", "notdok" dükanlarında hər şey satılır.Nə qədər söhbətləşsəm də,bu adların mənasını öyrənə bilmirəm. "Vesteel", "Katek" adlarıda eləcə.

"Simurq" və "Fiaminqo" da nə axtarırsan, taparsan. Ən çox toyuq,xoruz,ev quşları hətda İrandan gətirilən döyüşkən Heyratı xoruzları, lal ördəklər...

Prospektin sağ və sol tərəflərində əsl bazarı xatırladan 3 market var: "Muğan Store" , "Uğur", "Aran" adlanırlar.Hər şey satılır: qənd, çay, yağlar, çörək, konfetlər, dana, quzu əti, kolbasa, sosiska, siqaret, alma, armud, kartof, soğan, anadolu un... Birinin girəcəyində qadın şəkli.Yuxarıda bir beyt söz yazılıb: bazar geniş, yerim isti, alverin nəyi pisdi ? Diqqətlə baxıram : ANS telekanalının aparıcısı Xoşqədəm Hidayətqızının böyük şəklidir.

Növbəti dayanacağım "Məktəbli ləvazimatı" dükanı oldu: qələm, dəftər, dərsliklər, biliyin qiymətləndirilməsinə aid proşura, "Abituriyent" jurnalının nömrələri, bəzi dərsliklərə alternativ kitablar... Satıcı Həsənağa Quliyev gileylənir:

- Alver getmir.Müəllimlər bizimlə əlaqə saxlamırlar.

"Xəyal" , "Ümid", "Duyğu" dükanlarında da ərzaq sənaye malları müştərilərini gözləyir.

Bolqarçayın üstündəki dəmir körpünü keçən kimi sol tərəfdə "Laçın" dükanını görürəm.Nə yaxşı, yəqin onun sahibi ata-baba yurdundan didərgin düşən qaçqındır- deyə fikirləşirəm.Gedirəm ora cavan oğlan işləyir,-müştərilərinə un,kəpək,ev quşları üçün qarışıq yem satır.Salamlaşırıq.

Ağıllı, istiqanlı,onunla alver edənlərə xoş üz göstərən bir gənclə tanış oluram və öyrənirəm ki, adı Məhərrəmdir...Əslən Biləsuvarlıdır.Tibb universitetini bitirib rayon uşaq xəstəxanasına təyinat almış Nazənin adlı qızla məhəbbət macerası yaşamış və evlənmişlər.Gün-güzaranları pis keçmir...O deyir :

- Mən dükan açanda Nazənin yalvardı ki, bəs bu dükana "Laçın" adını verim.Xanımın sözünü yerə salmadım.Hərdən yanıma gələrkən "Laçın" sözünə baxır.

- Bazar olsun - deyib ayrılıram.

Məhərrəmdən və yaxın keçmiş gözlərim önündə canlanır.Biz erməni vandallarının ata-baba torpaqlarından didərgin saldığı soydaşlarımızın acı talehini gördük.Mən 1993-cü ilin payızında RİH-nin şəhər nümayəndəsi işləyirdim.İrandan keçib bizə pənah gətirən Zəngilan camaatının müsübətini hələdə unutmuram.Onları məktəblərdə,baxçalarda,-çörək zavodunda,peşə liseyində,yol idarəsində yerləşdirmək üçün nə gecəm oldu, nə gündüzüm.O zaman Cəbrayıl,Füzuli qaçqınlarına diqqət və qayğı göstərmək idarə və müəssisə rəhbərlərinin 1 nömrəli vəzifəsi idi.

... Bu gün sahibkarlara,tacirlərə səslənirəm:

- Əzizlərim, cəm-xəm eləməyin papağınızı qabağınıza qoyub fikirləşin və yığışdırın.O katek-mateki, siti-mitini, marketlərə, dükanlara Şuşa, Xankəndi, Xocavənd, Cəbrayıl, Xocalı, Kəlbəcər, Ağdam, Qubadlı kimi o cənnət məkanların adlarını verin.Hər gün işə,məktəbə tələsən cavanlar,uşaqlar oxusunlar o adları və unutmasınlar ki, işğal altındakı rayonlar hələ bizim yolumuzu gözləyir.

Məncə, kifayətdir.Geriyə dönürəm.Mədəm fit çalır.Nahara tələsirəm.Evin anasınıda unutmaq olar?Ona balıq almışam...

Nahar yeməyim ürəyimcə olur.Süfrədə nə yoxdurki... Yadıma loğman həkimin bu sözləri düşür. "İmkanım olsaydı ürəyimi yarardım-,ora sarımsaq qoyardım". "İlahi şükür" deyib həyətə düşürəm.Məndə vərdişdi: həmişə yeməkdən sonra azından bir saat bağ-bağçada gəzirəm...Ağaclar libasını soyunur,yerin üstü ölən yarpaqlarla çiçəklənir budaqdan: "Nə qədər ac qalmaq olar ? Heçnə verməzdi mənə, acından öldüm".O, hardan bilsin ki, budağın nə günahı...Torpaq yorulub,yatmaq,dincəlmək istəyir, bütün nəbatat aləmi solub-saralır.Əli qılınclı qış gəlir qabaqdan...Baxın, fikir verin : Təkcə cənnət ağacının-əncirini beşbarmaq yarpaqları tamamilə torpağa qovuşmayıb...

Düşünürəmki, indi bəlkə görüşdüyüm tacirlərdən bəzisi arxamca qeybət qırır,məni qınayır,qələt eləyir,başlarını daşa döyürlər.- Çörəyə,Qurana,hansısa seyidin cəddinə, atalarının goruna and içə-içə camaatın başına turp əkirlər.Fikir verin, kəntdən gələnlərdən bir yumurtanı 7 qəpiyə alıb, 20 qəpiyə, südün litrini 30 qəpiyə alıb, 50 qəpiyə satırlar.Mən ancaq onları bildirirəm ki, marketlərə və dükan-bazarlara heç özlərinin də mənasını bilmədikləri ad qoymasınlar.Bəyəm özünüzün gəlib-gedənlərdə xoş ovqat yaradan sözlərimiz azdımı? Belə deməyə əlimdə tutarlı arqumentimə var.Bu yaxınlarda AMEA-nın 70 illik yubileyində ölkə başçısı, Cənab İlham Əliyev dilimizin saflığı, təmizliyi, əcnəvi sözlərdən qorunması üçün alimlərə tövsiyyə və göstərişlərini verdi.Təkcə elm adamları deyil, biz hamımız şirin-şəkər dilimizi yad təsirlərdən qorumağa borcluyuq.Hayıf ki, KİV-də, Telegüzgülərdə hələ əcnəvi sözlər işlədilir.O gün ANS-də aparıcı xanım dedi ki, miqrantlar başqa yerə təhliyyə olundular.Nədi bu "təhliyə".O xanım "köçürüldülər" deyə bilməzdimi?"

***

Uzun payız gecəsinin bir aləmi.Sübh yuxusunda qulağıma tanış, doğma səs gəlir.- Məni diksindirir,haldan-hala salır,cavanlığıma qaytarır bu səs.Leyla xaladır, biz gəncləri elə mağazanın qapısında görən kimi töhmətləyir:

- Hara tələsirsiz,ay qırışmallar?Küçədə bu başa bu qızın dalınca, o başa o qızın dalınca ağzının suyu axa-axa gedirsiz...Təzə kitablar gəlib, alın oxuyun.O, yenicə çapdan çıxan bədii əsərlərin siyahısını qapının girəcəyində divardan asıb.Oxuyuruq: S.Vurğun-"seçilmiş əsərləri", Ə.Qasımov-"Adilənin talehi", L.Tolstoy-"Anna Karenina",M.Şoloxov-"Sakit Zon"...

Leyla xala "Azərbaycan" jurnalını vərəqləyir: "Burda bir hekayə var,deyir-Serjant İvanov adına körpələr evi."Ordubadındır...Jurnal neçəyədirki? 40 qəpiyiniz yoxdur?...Hər gün azından 2 saat kitap oxusaz,elimli, bilikli,tərbiyəli,mərifətli insan olarsız...

Həqiqətən, bu gün tüpürcək yağışına tutduğumuz sovetin vaxtında gündüz gəzdiyim prospektdə 3 kitab satışı mağazası var idi.- Satıcıları da gələnlərə xoş,mehriban üz göstərən qadınlar: Leyla Həsənova, Məryəm İbadova, Zərifə Qənbərova.İndi isə çox sevdiyim Biləsuvar şəhərində yoxdu belə mağazalar.Onların yerində marketlər, dükan-bazarlar...

**Əlibaba Rəhimov**
**Biləsuvar rayonu**